**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AİLƏ, QADIN VƏ UŞAQ PROBLEMLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN**
**KOLLEGİYASI**

**Q Ə R A R**
**№**

**Bakı şəhəri** **07 avqust 2020-ci il**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2020-ci ilin birinci yarımilliyi üçün İş Planının icra vəziyyəti barədə**

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Əsasnaməsində müəyyən edilmiş fəaliyyət istiqamətləri üzrə 2020-ci ilin birinci yarımilliyi üçün İş Planını hazırlamış və həmin planda nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsi istiqamətində öz işini qurmuşdur.

Aprel ayından etibarən COVİD-19 pandemiyası ilə əlaqədar olaraq təlim, görüş və tədbirlər onlayn formatda həyata keçirilməyə başlanılmışdır.

**Dövlətin ailə siyasəti istiqamətində aşağıdakı tədbirlər həyata keçirilmişdir.**

Komitənin təşəbbüsü, Səhiyyə Nazirliyi və Təhsil Nazirliyinin dəstəyi ilə Bakı şəhərində yerləşən orta ixtisas təhsili müəssisələrində gənc və yeniyetmələr arasında sağlam həyat tərzinin təbliği, gənclərin ailə həyatına hazırlığı, reproduktiv sağlamlıq və ailə planlaşdırılması sahəsində gənclərin maarifləndirilməsi məqsədi ilə müvafiq sahə üzrə ekspertlərin iştirakı ilə tədbirlər həyata keçirilmişdir.

Pandemiya dövründə ölkə Prezidenti cənab İlham Əliyevin koronavirus infeksiyası ilə mübarizə çərçivəsində elan etdiyi “Biz birlikdə güclüyük!” şüarına dəstək olmaq, həmçinin xüsusi karantin rejimi ilə əlaqədar ailələri ev şəraitində asudə vaxtını səmərəli və faydalı keçirməyə stimullaşdırmaq məqsədilə Komitə tərəfindən “Ailəm” müsabiqəsi həyata keçirilmişdir. Müsabiqənin münsiflər heyəti tərəfindən “Ən yaxşı foto material” və “Ən yaxşı video material” nominasiyaları üzrə qaliblər seçilmiş, diplom və hədiyyələrlə mükafatlandırılmışdır.

Ailənin psixoloji iqliminə, yeniyetmə və gənclərin ailədə şəxsiyyət kimi formalaşmasına təsir edən amillərin müzakirəsi məqsədilə “Onlayn psixoloq xidməti” adlı layihəyə start verilmişdir. Layihə çərçivəsində Komitə tərəfindən karantin və sosial izolyasiya müddətində ailələrdə yaranan psixoloji problemlərin həllində köməklik göstərmək məqsədilə psixoloqların iştirakı ilə onlayn görüş keçirilmişdir.

2008-ci ildən etibarən hər il may ayında Komitə tərəfindən “Beynəlxalq Ailə günü” münasibəti ilə tədbirlər həyata keçirilir. Cari yarımildə pandemiya dövrü ilə əlaqədar olaraq Komitə tərəfindən "Azərbaycan ailəsi pandemiya və post-pandemiya dövründə: sosial-mədəni, psixoloji məqamlar” adlı video-konfrans keçirilmişdir.

Ailə siyasəti istiqamətində keçirilən onlayn təlim və görüşlərdə ümumilikdə 8800 nəfərdən çox baxış sayı qeydə alınmışdır.

**Dövlət qadın siyasətinin həyata keçirilməsi istiqamətində cari yarımil ərzində bir sıra onlayn görüşlər, video-konfranslar və araşdırmalar həyata keçirmişdir.**

Komitənin "Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda" İctimai Birliyinin birgə əməkdaşlığı ilə həyata keçirilən "Dayanıqlı İnkişaf Məqsədlərinin Tətbiqi Vasitəsilə Gender Əsaslı Bələdiyyələrin Təşviqi" layihəsi çərçivəsində ölkədə keçirilən son bələdiyyə seçkilərində qadınların əldə etdiyi nailiyyətlərlə bağlı Dəyirmi Masa təşkil edilmişdir.

Komitə tərəfindən "8 Mart Beynəlxalq Qadınlar Günü"nə həsr olunmuş tədbir həyata keçirilmişdir. Tədbirdə ölkə başçısının qadınlara təbrik məktubu səsləndirilmiş və Azərbaycan elminin və mədəniyyətinin inkişafında öz sözlərini demiş, eləcə də ictimai-siyasi sahədə mühüm xidmətləri olan bir qrup qadına Prezident təltifləri təqdim olunmuşdur.

Komitə və Almaniya Beynəlxalq Əməkdaşlıq Təşkilatının (GİZ) birgə təşkilatçılığı ilə gender bərabərliyi üzrə məsul şəxslər üçün 2 günlük təlim kursu keçirilmişdir. Təlimdə iştirakçılara gender bərabərliyinin təmin edilməsi, qadın hüquqlarının müdafiəsi, liderlik, gender auditi, mövcud gender siyasəti və bu istiqamətdə milli qanunvericilik və beynəlxalq təşkilatlarla əməkdaşlıq, cinsi ayrı-seçkiliklə mübarizə üsulları və digər müvafiq mövzularla bağlı məlumat verilmişdir.

Komitə, "Sağlam Həyat Naminə" İctimai Birliyinin birgə əməkdaşlığı və British Petroleum Şirkətinin maliyyə dəstəyi ilə Tovuz rayonunda "Qadınların məşğulluğuna və mikro sahibkarlıq fəaliyyətinə dəstək məqsədi ilə İcmada Ailəyə Dəstək Klubunun yaradılması" adlı layihə həyata keçirir. Layihə çərçivəsində Tovuz rayonunda qadınlara maliyyə savadlılığı, biznes bacarıqları ilə bağlı təlimlər keçirilmişdir. Həmçinin Komitə tərəfindən "İş prespektivi", "Layihə yazılması və Fandreyzinq", "Liderlik", "Risklərin təhlili və idarəetmə" , "Öz biznesini başla və inkişaf etdir", "Markalaşma, qablaşdırma və satış strategiyası", "Maliyyə idarəetməsi" , "Biznesin dayanaqlılığı metodu" və "Vergi uçotunun aparılması" mövzularında da təlimlər həyata keçirilmişdir.

Məlumdur ki, koronavirus pandemiyası ilə bağlı müxtəlif istiqamətlərdə mübarizə aparılmaqdadır. Bu mübarizə müxtəlif peşə sahibləri olan insanlardan gərgin əmək, çətin və məsuliyyətli qərarlar tələb edir. Həmçinin iş yerlərinin müvəqqəti bağlanması ilə əlaqədar olaraq çətin vəziyyətə düşən insanlara yardımını, maddi və mənəvi dəstəyini əsirgəməyənlərin, cəmiyyətimizin ən müxtəlif təbəqələrinin nümayəndələrinin, sadə vətəndaşlarının səyləri və zəhməti xüsusilə qeyd olunmalıdır.

Bu məqsədlə Komitə tərəfindən "Görünməyən Qəhrəmanlar" mövzusunda jurnalistlər və yazarlar arasında "Ən yaxşı yazı" müsabiqəsi elan olunmuşdur. Təqdim olunmuş məqalələrin münsiflər heyəti tərəfindən dəyərləndirilməsi prosesi başa çatmış, nəticələr müəyyən olunmuşdur.

Komitə tərəfindən Faşizm üzərində Qələbənin 75 illiyi münasibətilə paytaxt və regionları əhatə etməklə 15 veteran qadın ziyarət edilərək, onlara hədiyyələr təqdim edilmişdir.

Cari yarımildə Xəzər Qadın Resurs Mərkəzində (bundan sonra QRM) 21 nəfər, Sabirabad QRM-də 75 nəfər, Qusar QRM-də 22 nəfər qadın qeydiyyatdan keçmişdir. Hazırda Xəzər QRM-in 194 nəfər, Sabirabad QRM-in 393 nəfər, Qusar QRM-in 186 nəfər,

Masallı QRM-in 353 nəfər, Zaqatala QRM-in 243 nəfər qadın üzvü var. Onlar arasında az təminatlı ailələrdən olan, tənha və məcburi köçkün qadınlar üstünlük təşkil edir.

**Dövlət uşaq siyasəti istiqamətində bir sıra tədbirlər həyata keçirmişdir.**

Uşaqların cəmiyyətdə üzləşə biləcəyi zorakılıq hallarından müdafiəsi, onların öz hüquqlarını bilməsi və müdafiəsi ilə bağlı bacarıqlarının artırılması bu gün aktual məsələlərdən biridir. Bu məqsədlə Komitədə 40 uşağın iştirakı ilə tədbir keçirilmişdir. Uşaqlar xüsusilə regionlarda uşaqların zorakılıq hallarından müdafiəsi istiqamətində maarifləndirmə tədbirlərinin həyata keçirilməsini və nəzarət tədbirlərinin gücləndirilməsini, uşaqların fikirlərinə hörmətlə yanaşılması məqsədilə ailələrlə maarifləndirmə işlərinin aparılmasını, cəmiyyətdə hər bir uşağa qarşı hörmət hissinin aşılanması məqsədilə kütləvi təbliğat kampaniyalarının aparılmasını, uşaqlara qarşı cinayət hadisələrinin cəzalandırılması ilə bağlı qanunvericiliyin sərtləşdirilməsi ilə bağlı təkliflər irəli sürmüşdür.

Komitə tərəfindən ənənəvi olaraq uşaqlar arasında hər il keçirilən “Qələbəyə doğru” kuboku uğrunda intellektual oyunu uşaqların dünyagörüşünün artırılması, yeni biliklərin əldə edilməsinin stimullaşdırılması və asudə vaxtının səmərəli təşkili məqsədini daşıyır. Bu il “Qələbəyə doğru” kuboku uğrunda intellektual oyun hazırkı dövrdə qlobal pandemiyadan irəli gələrək və karantin dövrünün tələblərini nəzərə alaraq onlayn formatda keçirilmişdir.

"20 Yanvar faciəsinin 30-cu ildönümünə həsr olunan Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2019-cu il tarixli Sərancamı ilə bağlı Komitə və Azərbaycan Milli Elmlər Akademiyasının Elm Tarixi İnstitutunun birgə təşkilatçılığı ilə “20 Yanvar Hüzn Günü”nün adlı anım tədbiri keçirilmişdir.

Həmçinin Komitə və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə təşkilatçılığı ilə Xocalı faciəsinin 28-ci ildönümü ilə bağlı anım tədbiri keçirilmişdir. Tədbir zamanı uşaqlar tərəfindən sosial şəbəkələr vasitəsilə beynəlxalq təşkilatlara, xaricdə yaşayan geniş əhali kütlələrinə faciə barədə məlumatları özündə əks etdirən mesajlar çatdırılmışdır.

1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Komitə sədri və “Uşaq Səfirlər Məclisi”nin üzvlərinin iştirakı ilə onlayn video konfrans keçirilmişdir.

Komitənin rəsmi feysbuk səhifəsində uşaqlar üçün "Həyati bacarıqlara yiyələn!", “Uşaqların asudə vaxtının səmərəli təşkili”, “Uşaq və gənclərin uğurlu ixtisas və peşə seçimi” və “Uşaqların internet təhlükəsizliyi və onun təmin olunması yolları” mövzularında onlayn təlimlər, “Karantin vəziyyətində sağlamlıq imkanları məhdud uşaqların psixoloji reabilitasiyası”, “Qarabağ həqiqətlərinin dünyaya çatdırılması” mövzularında onlayn müzakirələr həyata keçirilmişdir. Onlayn təlim və müzakirələrdən öncə uşaqlara hazırda yayılmış koronavirusdan qorunmaq üçün şəxsi gigiyena qaydalarına riayət olunmasının əhəmiyyəti çatdırılmışdır.

**Cari yarımildə Komitənin Regionlal mərkəzlərinin fəaliyyətlərinin təkmilləşdirilməsi**, işçilərin iş keyfiyyətinin yaxşılaşdırması məqsədilə yanvar, fevral və mart aylarında bütün mərkəzlərə şöbə əməkdaşları tərəfindən monitorinq səfəri edilmiş, monitorinq hesabatı hazırlanmış, mərkəz rəhbərləri ilə aylıq görüşlər keçirilmiş, monitorinqin nəticələri ilə bağlı əməkdaşlar təlimatlandırılmışdır.

COVİD-19 pandemiyası ilə mübarizə kampaniyası çərçivəsində Komitə və nəzdində fəaliyyət göstərən 11 Uşaq və Ailələrə Dəstək Mərkəzləri (UADM) tərəfindən müxtəlif sahələr üzrə genişmiqyaslı layihələr, maarifləndirici tədbirlər və aksiyalar həyata

keçirilmişdir. Bu fəaliyyət çərçivəsində **"Ailələrə zəng"** maarifləndirmə aksiyası vasitəsilə **3245** vətəndaş məlumatlandırılmış, **1020** ailəyə məlumat vərəqi paylanılmış, **361** nəfərə psixoloji dəstək göstərilmiş, **1562** nəfərə mərkəzlərin könüllüləri tərəfindən tikilmiş tibbi maskalar paylanılmış, **834** uşağa onlayn məşğələ keçirilmişdir.

Cari yarımil ərzində Komitə və UADM-lərdə ümumilikdə 55 gənc könüllülük fəaliyyətinə qoşulmuşdur. Könüllülərin iştirakı ilə 19 tədbir təşkil olunmuş və bu tədbirlərdə 266 nəfər iştirak etmişdir. Könüllülük fəaliyyətindən ümumilikdə 2270 vətəndaş faydalanmışdır

**Həmçinin cari yarımildə Komitə BMT-nin Əhali Fondu, Avropa İttifaqı, BMT-nin İnkişaf Proqramı, Asiya İnkişaf Bankı və digər beynəlxalq təşkilatlarla əlaqələrin inkişaf etdirilməsini istiqamətində fəaliyyət göstərmişdir.**

Tvininq layihəsi üzrə Finlandiya, Yunanıstan, Fransa, Litva və Avstriyanın təqdim etdiyi layihələr nəzərdən keçirilmiş və seçim yekunlaşmışdır. Seçim nəticəsində "Azərbaycanda məişət zorakılığı qurbanlarının dəstəklənməsi və təhlükəsizliyinin təmin edilməsi mexanizmləri üzrə yerli və dövlət qurumlarının potensiallarının gücləndirilməsi" adlı Litva və Avstriyanın birgə layihəsi üzrə sənədlər hazırlanmışdır.

Bundan başqa, "Böhran dövründə tətbiq olunan tədbirlər və təcrübələr" mövzusunda hesabat hazırlanaraq BMT Qadınlar Təşkilatı və Avropa Şurasına təqdim edilmişdir. Həmçinin, BMTnin "Qlobal miqrasiya şəraitində qadın və qız alveri ilə bağlı ümumi tövsiyələr" adlı sənəd layihəsinə dair təkliflər hazırlanmışdır.

Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOİKA) "Selektiv abortların qarşısının alınması" layihəsinin həyata keçirilməsi istiqamətində danışıqlar aparılmış və fəaliyyətlərin onlayn formada davam etdirilməsi üzrə razılığa gəlinmişdir.

Koronavirus pandemiyası ilə bağlı Komitənin sosial şəbəkə hesablarında uşaqlar üçün maarifləndirici xarakterli materiallar paylaşılmışdır.

**Eyni zamanda cari yarımildə dövlət proqramlarının və milli fəaliyyət planının həyata keçirilməsi istiqamətində də bir sıra tədbirlər həyata keçirilmişdir.**

Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının "Valideyn himayəsindən məhrum olmuş kimsəsiz məzunların yaşayış şəraitinin yaxşılaşdırılması sahəsində işlərin davam etdirilməsi" bəndinə uyğun olaraq bu istiqamətdə Komitənin təşəbbüsü ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində olan "Məzun evi"nin gənc sakinlərinə açıq qapı günü təşkil edilmişdir.

"Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planının 4.5.3-cü bəndinin icrası ilə bağlı olaraq uşaqların dispanserizasiyaya cəlb edilməsi məqsədi ilə uşaqlar və valideynlər arasında sağlamlıq, xəstəliklərin risk amilləri və s. müvafiq mövzular üzrə Şüvəlan, Göygöl, Saatlı, Ağdam, Goranboy, Sabirabad və Zərdab UADM-lərda əyani və onlayn formatda təlimlər keçirilmiş, bukletlər paylanılmışdır.

"Azərbaycan Respublikası Regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın 7.1.37-cü bəndinin icrası ilə bağlı qadınların məşğulluğunun artırılması, eləcə də onlar arasında kiçik sahibkarlığın inkişaf etdirilməsi, peşə hazırlığının gücləndirilməsi, maliyyə savadlılığının və informasiya texnologiyalarından istifadə bacarıqlarının artırılması istiqamətində həyata keçirilən tədbirlərdən ümumilikdə 221 nəfər bəhrələnmişdir.

"Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə 2018—2020-ci illər üçün Milli Fəaliyyət Planı"nın 5.2.8 və 5.5.3 bəndlərinin icrası məqsədilə uşaq müəssisələrində, uşaqlara xidmət göstərən sosial xidmət müəssisələrində uşaqlıq dövrünə xas olan əlilliyin erkən aşkarlanması və profilaktikası məqsədilə Göygöl, Ağdam, Hacıqabul, Sabirabad UADM-ləri tərəfindən maarifləndirici tədbir və təlimlər həyata keçirilmişdir.

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın 4.4.20, 4.4.23, 4.4.26, 4.4.37 bəndlərinin icrası məqsədilə narkomanlığın cəmiyyətə və insan sağlamlığına zərəri barədə ictimaiyyətin məlumatlandırılması, internet resurslarının hazırlanması, mütəxəssislər, valideyn, müəllim və şagirdlər üçün maarifləndirici və profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə Şüvəlan, Ağdam, Goranboy, Saatlı, Sabirabad, Hacıqabul, Zaqatala, Zərdab UADM-ləri tərəfindən həmin rayonlarda 483 nəfərin iştirakı ilə müxtəlif formatlı tədbirlər keçirilmiş, bukletlər paylanılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il tarixli 24 aprel, 291s saylı Sərəncamının 2.1-ci yarımbəndinə əsasən Komitə tərəfindən "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması möhkəmləndirilməsi məqsədi ilə erkən nikahın və qohumları arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nın layihəsi hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 1 iyun tarixli 123 nömrəli Qərarı ilə Qayda təsdiq edimişdir.

2020-ci ilin 7 ayı ərzində Komitəyə 1426 vətəndaş müraciəti, 641 xidməti məktub daxil olmuşdur. Daxil olan müraciətlər Komitənin səlahiyyətləri və vəzifələri çərçivəsində baxılmış və cavablandırılmışdır.

Məruzə və çıxışları nəzərə alaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Kollegiyası

**QƏRARA ALIR:**

1. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2020-ci ilin birinci yarımilliyi üzrə fəaliyyəti qənaətbəxş hesab edilisin və hesabat nəzərə alınsın.
2. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2020-ci ilin ikinci yarımilliyi üçün İş Planı təsdiq edilsin.
3. 2020-ci ilin birinci yarısında COVİD-19-la bağlı elan edilmiş xüsusi karantin rejimində Komitənin müsbət fəaliyyəti nəzərə alınaraq, ikinci yarımil üçün İş Planının Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın qərar və tapşırıqları nəzərə alınmaqla həyata keçirilməsi təmin edilsin.
4. Ailə Problemləri şöbəsinə tapşırılsın ki, "Azərbaycan Ailəsi Strategiyası"nın hazırlanması istiqamətində işləri yekunlaşdıraraq, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilməsini təmin etsin.
5. Ailə Problemləri, Qadın problemləri və gender məsələləri, İnformasiya və analitik araşdırmalar şöbələrinə, "Araşdırma və təhlil üzrə İşçi Qrupu"na tapşırılsın ki, "Mövcud ailədaxili münasibətlər: sosial və psixoloji təhlil" mövzusunda araşdırma və təhlilin keçirilməsini təmin etsinlər.

6. Qadın problemləri və gender məsələləri şöbəsinə tapşırılsın ki, yerli özünüidarəetmə orqanlarında gender məsələləri üzrə məsul şəxslərin təyin olunması ilə bağlı işləri davam etdirsin, eyni zamanda kənd qadınlarının ictimai fəallığının artırılması, onlara iqtisadi biliklərin öyrədilməsi istiqamətində Qadın Resurs Mərkəzlərinin(QRM) fəaliyyətini gücləndirsin.
7. Uşaq problemləri şöbəsinə, "Araşdırma və təhlil üzrə İşçi Qrupu"na tapşırılsın ki, Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 8 may tarixli 626 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"ndan irəli gələrək uşaq hüquqlarının təmin edilməsi vəziyyətinə dair 2018- 2019-cu illərin analitik məlumatlarını özündə əks etdirən hər bənd üzrə infoqrafika ilə işlənilmiş ətraflı müqayisəli hesabatın hazırlanmasını təmin etsinlər.
8. Hüquqi təminat şöbəsinə tapşırılsın ki, Komitəyə müraciət etmiş məişət zorakılığı qurbanlarının hüquqlarının bərpasına nəzarəti və yerli rayon icra hakimiyyətlərində yaradılmış "Gender zorakılığı və uşaqlara qarşı zorakılıq üzrə" monitorinq qrupları ilə işləri daha da gücləndirsin.
9. Regional mərkəzlərlə iş şöbəsinə tapşırılsın ki, Uşaq və Ailələrə Dəstək Mərkəzlərinin fəaliyyət istiqamətləri üzrə nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini pandemiya dövrünün tələblərini nəzərə alaraq gücləndirsin.
10. Xarici əlaqələr və protokol xidməti şöbəsinə tapşırılsın ki, "Azərbaycanda məişət zorakılığı qurbanlarının dəstəklənməsi və təhlükəsizliyinin təmin edilməsi mexanizmləri üzrə yerli və dövlət qurumlarının potensiallarının gücləndirilməsi" adlı Tvininq layihəsi çərçivəsində müvafiq tədbirlərin həyata keçirilməsini, BMT və Avropa Şurasının Komitələrinə hesabatların hazırlanması və təqdim olunmasını, eyni zamanda müvafiq Komitələrin iclaslarında iştirakı təmin etsin.
11. Kadr və kargüzarlıq şöbəsinə tapşırılsın ki, Komitəyə və Uşaq və Ailələrə Dəstək Mərkəzlərinə daxil olan məktub və vətəndaş müraciətlərininin mövzular üzrə qruplaşdırılmasını, nəticələrinin öyrənilərək təhlilini təmin etsin və eyni zamanda Komitəyə daxil olan xidməti sənəd və məktubların icra mexanizminə nəzarəti gücləndirsin.
12. İnformasiya və analitik araşdırmalar şöbəsinə tapşırılsın ki, kütləvi informasiya vasitələri ilə səmərəli əməkdaşlığı təmin etsin, Komitənin internet resurslarının təkmilləşdirilməsi ilə bağlı işləri gücləndirsin, "Araşdırma və təhlil üzrə İşçi Qrupu"nun fəaliyyətini təşkil etsin.
13. Maliyyə-təsərrüfat şöbəsinə tapşırılsın ki, 2020-ci ilin ikinci yarısında həyata keçirilməsi nəzərdə tutulmuş tədbirlərin maliyyə xərclərinin smetasının tərtib edilməsini təmin etsin.
14. Qərarın icrasına nəzarət Komitənin sədr müavinləri Sədaqət Qəhrəmanovaya, Aynur Sofiyevaya, aparat rəhbəri Ceyran Rəhmətullayevaya tapşırılsın.

**Kollegiyanın sədri** **Bahar Muradova**